# Futbol üzrə rayon çempionatının final yarışı

18 Oktyabr - Dövlət Müstəqilliyi Günü münasibətilə Qəbələ Rayon İcra Hakimiyyətinin kuboku uğrunda idarə-müəssisə, təşkilat və bələdiyyələr arasında keçirilən futbol üzrə rayon çempionatı başa çatmışdır. Çempionatın keçirilməsində məqsəd dövlət müstəqilliyi gününün yaranma tarixini bir daha ictimaiyyətin nəzərinə çatdırmaq, həmçinin futbolun kütləviliyinə nail olmaq, gənclər arasında futbolun təbliğini gücləndirmək, futbolçuların idman ustalıqlarını artırmaq, rayonda perspektivli futbolçuları aşkar etməkdir.





Çempionata sentyabrın 20-də olimpiya idman kompleksinin stadionunda start verilmişdir. Kubok yarışına 10 komanda qatılmışdır. İki yarımqrupda görüşən komandalar dairəvi sistem üzrə mübarizə aparmışlar. Hər qrupdan yüksək xalla çıxan iki komanda yarımfinalda qarşılaşmış və qalib komandalar finala vəsiqə qazanmışlar.

Yüzlərlə futbol azarkeşinin izlədiyi final mərhələsində Qəbələ Müalicə-Diaqnostika Mərkəzinin "Diaqnostika" komandası Qəbələ Beynəlxalq Hava Limanının "Aeroport" komandası ilə qarşılaşmışdır.

Maraqlı və gərgin idman mübarizəsi şəraitində keçən final oyununda "Diaqnostika" komandası "Aeroport" komandasına qalib gələrək birinci yeri tutmuşdur.

Qaliblərı mükafatlandırma mərasimində rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək Prezident cənab İlham Əliyevin idmana daim diqqət göstərməsindən, onun rəhbərliyi ilə ölkədə nəhəng idman infrastrukturunun yaradılmasından danışmışdır. Sonda Səbuhi Abdullayev qalib komandaları bir daha təbrik edərək, onları kubok, xatirə hədiyyələri və diplomlarla mükafatlandırmışdır.

**Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**
**Fotolar İlkin Vəlizadənindir.**

## QƏBƏLƏ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ 2017-ci İLİN NOYABR AYINDA YERLƏRDƏ KEÇİRƏCƏYİ GÖRÜŞ-QƏBULLARIN QRAFİKİ

| Tədbirin keçiriləcəyi yaşayış məntəqəsinin adı (şəhər qəsəbə, kənd) | Tarix | Görüşün keçiriləcəyi yer və vaxtı |
|---|---|---|
| Qaradeyin kəndi | 07.11.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Zalam kəndi | 14.11.2017 | Kənd məktəbi, saat $15^{00}$ |
| Siləyli kəndi | 21.11.2017 | İcra nümayəndəliyi, saat $11^{00}$ |
| Mıxlıqovaq kəndi | 28.11.2017 | Kənd məktəbi, saat $15^{00}$ |

**Qəbula dəvət olunurlar:** təhsil, səhiyyə müəssisələrinin, hüquq-mühafizə orqanlarının, məşğulluq, gigiyena və epidemiologiya mərkəzlərinin, dövlət sosial müdafiə fondunun, poçtamtın, telekommunikasiya qovşağının, elektrik şəbəkəsinin, yol-istismar, baytarlıq, qaz-istismar, suvarma sistemləri, meşələrin bərpası və mühafizəsi idarələrinin rəhbərləri.

# "Tərəqqi" medalı ilə təltif olunub

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının Kürd kənd inzibati ərazisi üzrə nümayəndəsi Alıyev Eyyub Hüseyn oğlu uzun illər dövlət qulluğunda səmərəli fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.



Bununla bağlı Eyyub Alıyev sevincini belə ifadə edib: "Gözləmədiyim halda möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən təltif olunduğuma görə özümü həddsiz dərəcədə xoşbəxt sayıram. Bu mənim fəaliyyətimə ölkə başçımız tərəfindən verilən çox yüksək qiymətdir."

Alıyev Eyyub Hüseyn oğlu 1961-ci ildə Qəbələ rayonunun Kürd kəndində anadan olmuşdur. O, 1979-cu ildə Kürd kənd orta məktəbini bitirmiş, 1980-ci ildə S. Ağamalıoğlu adına Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutuna daxil olmuşdur.1984-cü ildə həmin ali təhsil müəssisəsini iqtisadçı mühasib ixtisası üzrə bitirərək, Kürd kəndindəki Nizami adına kolxozda mühasib kimi əmək fəaliyyətinə başlamışdır. O, 1987-ci ildə irəli çəkilərək rayon partiya komitəsinin baş mühasibi vəzifəsinə təyin olunmuşdur. 1990-cı ildə Kürd kənd XDS İK-nın sədri vəzifəsinə seçilmiş, üç il həmin vəzifədə çalışmışdır. 1992-95-ci illərdə isə Eyyub Alıyev Nizami adına kolxozun idarə heyətinin sədri kimi əmək fəaliyyətini davam etdirmişdir.

O, 1999-cu ildən bu günədək Kürd kənd inzibati ərazi nümayəndəsi vəzifəsində çalışır. Yeni Azərbaycan Partiyasının üzvüdür.

İşlədiyi dövrdə Eyyub Alıyev rayon ictimaiyyətinin dərin hörmətini qazanmış və kürdlülərin sevimlisinə çevrilmişdir.

Eyyub Alıyev dəfələrlə Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri Fərmanlarına, qiymətli hədiyyələrinə layiq görülmüşdür.

**"Qəbələ"**
**Foto İlkin Vəlizadənindir.**

# Seminar keçirilmişdir

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qəbələ Rayon İcra Hakimiyyəti ilə birlikdə «İslam Həmrəylik dinidir»mövzusunda seminar keçirmişdir.

Oktyabrın 24-də Qəbələ Mədəniyyət Mərkəzində baş tutan seminarı giriş sözü ilə Qəbələ cümə məscidinin imamı Ceyhun Rüstəmov açmış, mövzu ilə əlaqədar geniş məlumat vermişdir.

Sonra vətənimizin ərazi bütövlüyü uğrunda həlak olan qəhrəman şəhidlərimizə həsr olunmuş sənədli film nümayiş etdirilmişdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şəki Regional Şöbəsinin müdiri Gündüz Paşayev mövzunun aktuallığını qeyd edərək İslam həmrəyliyi məsələləri ilə əlaqədar Dövlət Komitəsinin və onun yerli qurumlarının apardığı maarifləndirmə tədbirlərindən danışmışdır.

Seminar iştirakçılarına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin hazırladığı «Multukultrualizm» və «İslamda qəddarlığa münasibət» adlı kitabçalar təqdim olunub.

Tədbirdə Qəbələ Rayon İcra Hakimiyyəti ictimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini Absalam Hüseynov iştirak etmişdir.

**Rais RƏŞİDOV**
**«Qəbələ»**

# Məktəblərlə birgə

*Cəmiyyətimizin təkmilləşməsi, tariximizin yaşadılması, gələcək nəsillərə düzgün şəkildə çatdırılmasında muzeylərin böyük rolu vardır. Canlı tarixi yaşadan Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi 2500 illik dövrü əhatə edən, 900 il paytaxt şəhər kimi Qafqaz Albaniyasının ulu keçmişini, etnoqrafiyasını mühafizə edən elm mərkəzidir.*

Muzey ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə ölkədə yaradılan ilk altı muzeydən biridir. Bu elm məbədində 1400-ə yaxın tarixi və elmi əhəmiyyətə malik qiymətli eksponatlar mühafizə olunur.

Əməkdar mədəniyyət işçisi Xalis Məmmədovun rəhbərlik etdiyi muzey AMEA ilə sıx əməkdaşlıq edir. Burada mühafizə, tədqiq və təbliğ olunan materiallar əsasında bir neçə namizədlik və doktorluq dissertasiyaları yazılmışdır.

Muzeylər həm də gənc nəslin dünyagörüşünün formalaşmasında, mənəvi tərbiyəsində və həyata düzgün istiqamətləndirilməsi sahəsində böyük işlər görür.

Öz işini bu istiqamətdə quran muzey işçiləri məktəblilərlə, gənclərlə daha fəal iş apararaq, onlarda əmək, estetik, əxlaq, vətənpərvərlik, tariximizə maraq tərbiyəsinin formalaşdırılması sahəsində silsilə tədbirlər həyata keçirir.

İsmayıl bəy Qutqaşınlının, İbrahim bəy Musabəyovun, Cahangir Qəhrəmanovun, Saleh Qaziyevin, Qara Əhmədovun, və s. Azərbaycan ziyalılarının yubileyləri belə tədbirlərdəndir.

Qarabağ müharibəsi veteranları ilə, alimlərlə, şair və yazıçılarla muzeydə keçirilən görüşlər də yeni nəslin dünyagörüşünün formalaşmasına, əsl vətənpərvər kimi tərbiyə olunmasına müsbət təsir edir. Məktəblilər bu görüşlərdə onlardan nümunə götürməyə çalışırlar.

Eləcə də muzeydə vaxtaşırı olaraq məktəblilər üçün viktorinalar, bədii qiraətlər təşkil edilir. Bu qəbildən olan tədbirlər məktəblilərin elmə, biliyə marağını artırır, onları daha da yaxşı oxumağa, daim axtarmağa sövq edir. Məktəblilərə tarix və ədəbiyyat dərslərinin keçirilməsi üçün burada çox zəngin əyani vəsaitlər vardır.

Bundan başqa muzeydə məktəblilərin ibarət sərgilər də təşkil edilir və bu tədbirlərin hamısı yerli mətbuatda müntəzəm olaraq işıqlandırılır.

Hazırda muzeyimizdə "Gənc təbiətçilər", "Bələdçilər" və "Tarixçilər" dərnəkləri fəaliyyət göstərir. Dərnək iştirakçılarının Çuxur Qəbələ kəndindəki arxeoloji tədqiqatlar mərkəzinə, qazıntı yerlərinə və digər tarix-mədəniyyət abidələrinə turları təşkil edilir.

Tarixçilər dərnəyinin üzvləri bu günlərdə "İslam həmrəyliyi ili" çərçivəsində həmyerlimiz Hacı Əhməd Əfəndizadənin 1911-ci ildə "Orucov Qardaşları Mətbəəsi"ndə çap olunan "İrşadi-İslam" (İslamın bələdçisi) kitabını müzakirə etmişlər.

**İlhamə SEYİDOVA,**
**muzeyin kiçik elmi işçisi.**

# Qəbələ "Chenot Palace Health Wellness Hotel"i Parisdə yüksək mükafata layiq görülüb

Parisdə "Chateau de Ferrieres" qəsrində 15-ci "Prix Villegiature 2017" - ən yaxşı otel, otel dizaynı və memarlığı, spa, xidmət kimi 21 nominasiya üzrə mükafatlandırma mərasimi keçirilib.



Qəbələ rayonundakı "Chenot Palace Health Wellness Hotel" 6 otel arasında Avropada ən yaxşı spa, kurort və otel nominasiyaları üzrə qalib gələrək mükafatlandırılıb.

Tədbirdə "Chenot Palace Health Wellness Hotel"in direktoru Lorenzo Amaglio ölkəmiz və otel haqqında məlumat verib.

Otelin daxili dizayneri Mişel Juanet "Chenot Palace Health Wellness Hotel"in daxili tərtibatından danışıb, Avropanın Azərbaycandan başladığını vurğulayıb.

Azərbaycanın Fransadakı səfirliyinin nümayəndəsi Tural Rəsulov ölkəmizi yaxından tanımaq və otelin xidmətlərindən bəhrələnmək üçün münsiflər heyətini Azərbaycana dəvət edib.

Qeyd edək ki, "Prix Villegiature" 2003-cü ildə təsis olunub və otelçilik işi üzrə 21 nominasiyada mükafatlar təqdim edir. Mükafatlar 24 jurnalistdən ibarət münsiflər heyətinin səs verməsi yolu ilə müəyyən edilir.